*Zəminə Xınalı*

*Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi*



# *Zəfər Marşları*

Azərbaycan Respublikası Prezidentinin İşlər idarəsi
İnv. № 26623
PREZİDENT KİTABXANASI

Rəyçi: Məlahət İbrahimqızı, tarix elmləri üzrə fəlsəfə doktoru, millət vəkili.

Redaktor: Salmanov Salman Yaşar oğlu.

**Bu kitab Azərbaycan xalqının 44 günlük Vətən müharibəsi zamanı qazanılan möhtəşəm ZƏFƏR-ə hədiyyədir.**

Kitab Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dəstəyi ilə nəşr edilmişdir.

# Ön söz

Mən publisist, hərbiçi-şairə Zəminə Xınalını Müstəqillik illərindən tanıyıram.

Zəminə xanım, çox dəyərli və fədakar bir Azərbaycan xanımıdır. Onun həm şəxsi həyatı, həm də fəaliyyəti demək olar ki, Müzəffər Milli Ordumuzla ilə sıx bağlıdır. Biz bunu Zəminə Xınalının keçdiyi həyat yoluna nəzər saldıqca onun ədəbi fəaliyyətində gördüyümüz kimi şəxsi həyatında da açıq görürük. O, Qarabağ müharibəsinin ilk illərindən bu günə qədər sözün əsl mənasında bizimlə, Milli Ordumuzla birlikdə əsgərlik etmişdir. Bu illər ərzində üzləşdiyi çətinliklərə, acılara baxmayaraq, bir saniyə belə ruhdan düşməmiş, əsl mətinlik nümayiş etdirir.

Zəminə Xınalı sözün əsl mənasında Vətən fədaisidir. Onun həyat yoldaşı – mayor Akif Bayramov 1-ci Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Gənc yaşlarında ömür gün yoldaşını itirən bu ziyalı xanım,şairə kədərinə qalib gələ bildi. O, ümidsizliyə, ruh düşkünlüyünə qapılmadı. Tam əksinə olaraq, həyat yoldaşının fəda olduğu Vətən uğrunda özü də xidmətə başladı. Ağrı-acısını qəlbinə gömdü, həyatın sərt üzünə sinə gərdi. Vətən üçün iki ləyaqətli oğul böyütdü. Onları da "oğul Vətən üçündür" deyərək orduya, Vətənə xidmətə yola saldı. Hal-hazırda hər iki oğlu Azərbaycanın Şanlı Milli Ordusunun zabitləridir. Vətənə məhəbbət, düşmənə nifrət hissi ilə yaşayıb yaradan Zəminə Xınalının amalı yalnız Vətəndir, Vətən sevgisidir.

Ali Baş Komandanın əmrinə hər zaman hazır olan Zəminə Xınalının oğulları ön cəbhədə, döyüş bölgəsində düşmənə layiqli zərbələr endirərək, Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə: 2016-cı il

Aprel döyüşləri və 2020-ci il "Vətən müharibəsində" iştirak ediblər. Xoş müjdə, Qələbə sorağını xalqımıza yetirən bu qəhraman zabitlərin anası olan Zəminə Xınalının amalı Vətənə məhəbbət, düşmənə nifrət hissi onun yaradıcılığının əsasını təşkil edir.

Zəminə Xınalı yeganə Azərbaycan şairəsidir ki, o həm yaradıcılığı ilə, həm də peşəsi ilə Vətənə xidmət edir. Vətənpərvərlik onun qanına-canına hopub desəm lap yerinə düşərdi.

Zəminə xanım gənc nəslin Hərbi-Vətənpərvərlik ruhunda yetişməsində, Torpağa, Bayrağa, Dövlətinə, Millətinə olan sonsuz sevgisinə görə dəfələrlə Komandanlıq tərəfindən Fəxri Fərmanlarla təltif olunmuşdur.

Qələmi həm onun sirdaşı, mən deyərdim, həm də silahı oldu. Əsgər silahına sarılan kimi o da qələminə sarıldı. Dərdini, düşüncələrini qələmi ilə bölüşdü. Onun iztirabını, ağrılarını misralarında aydın hiss edirik. Yaradıcılığının hər nümunəsi Vətən sevgisi ilə yoğrulmuşdur. Yazılarını oxuyarkən gah qisasçı əsgər, gah ağzı dualı zabit anası, gah da Şəhid ailəsi ilə üz-üzə gəlirik. Bu hər hansı bir obraz deyil. Bu əsl Zəminə xanımdır ki, öz həyatını qələmə alır. Allah vergili saçları anadangəlmə xınalı Zəminə xanım, Xınalı təxəllüsü ilə sanki özünü Vətənə qurban demişdir.

Zəminə Xınalı vətənpərvər şairədir. Hərbi vətənpərvərlik mövzusunda zəngin yaradıcılığa malikdir. Bir çox mahnı və marşların mətn müəllifidir. O cümlədən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbinin, Dünya Azərbaycanlılarının Həmrəylik marşının, Azərbaycan Sülhməramlı Qüvvələrinin Sülh marşının, Xüsusi Mühafizə Briqadasının, Ağsaqqallar Şurasının, Azərbaycan Dövlət Dəniz Akademiyasının, Mərkəzi Hərbi Klinik Hospitalının, Xəzər Dəniz QSC-nin, Mülki Müdafiə Qoşunlarının, Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun, Heydər Əliyev adına Hərbi Liseyin marşlarının sözləri onun qələminə məxsusdur.



"Ali Baş Komandan", "Təki Vətən yaşasın", "Qəhrəman Həzi", Artilleriyanın Allahı", "Vətən torpağı", "Vətən bizim anamız" mənzum pyesləri də səhnələşdirilmişdir. Onun əsərləri Azərbaycan Radiosunun "Qızıl fondu"nda saxlanılır.
Bir çox mötəbər mükafatlara layiq görülmüş Əməkdar Mədəniyyət İşçisi Zəminə xanım Xınalıya dərin sevgi və sayğılarımla gələcək fəaliyyətində bol-bol uğurlar arzu edirəm.

**General-mayor, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi Hərbi Orkestr xidmətinin rəisi, Xalq artisti, professor "Şöhrət Ordenli" Yusif Axundzadə**

# ALİ BAŞ KOMANDANIM

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Aydın Ağasıyev*

*Qafqazda yenilməyən*
*Ordumuzu yaratdın.*
*Azərbaycan bayrağın,*
*Zirvələrə ucaltdın*
*Bütün dünya bilir ki,*
*Yolun haqqın yoludur*
*Qələbəni yetirən*
*İlham Heydər oğludur.*
*Qarabağ azad oldu,*
*Şəhid ruhu şad oldu,*
*Yurdumuz abad oldu,*
*Zəfər marşı çalındı.*
*Ay-ulduzlu bayrağım,*
*Qarabağa sancıldı,*
*Andım, şərəfim, şanım,*
*Ali Baş Komandanım.*
*Ordumuzla irəli,*
*Yetirin xoş xəbəri,*
*Qartal gözlü Vətənin,*
*Sən döyünən ürəyi,*
*Çətin – şərəfli yolda,*
*Tanrı oldu köməyin.*
*Mənim dünya şöhrətli*
*Ali Baş Komandanım.*



# HEYDƏR ATAMIZ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Azər Dadaşov*

*Azərbaycan adını*
*Azərbaycan xalqını,*
*Dünyaya tanıtdıran*
*Heydər atamız oldu.*

*Sinəndə öz də yansa,*
*Dilində söz də yansa,*
*Qarşında kim dayansa*
*Yaşa ey Odlar yurdu.*

*Damarında Türk qanı,*
*Axan Heydər özüdür.*
*Bütün Türk dünyasında,*
*Atatürklə özüdür.*

# MÜDRİK SƏRKƏRDƏ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nailə Mirməmmədli*

*Əmrinə hər zaman hazır olanlar,*
*Səsinə səs verdi igid oğullar,*
*Aşdılar gör neçə dərələr – dağlar,*
*Azad günə çıxdı ellər – obalar.*
*Sizə çatan varmı. Siz tək hünərdə,*
*Yeni tarix yazan, müdrik sərkərdə.*

*Gəlmişik söylədin Əziz Şuşaya,*
*Asdın bayrağını qədim Qalaya,*
*Adını yazmışam ulduza – aya,*
*Qalib olduğunu yaydın dünyaya,*
*Döyüş meydanında, hərb meydanında,*
*Yeni tarix yazan müdrik sərkərdə.*

*Şəhid qanlarını yerdə qoymadın,*
*Səninlə öyündü hər qız, hər qadın.*
*Xalqın gözlərində özün ucaldın.*
*Bayrağın ucaldı uca göylərdə.*
*Yeni tarix yazan, müdrik sərkərdə.*



# SƏNƏ BORCUM VAR, VƏTƏN!

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nailə Mirməmmədli*

*Qəlbimin şah damarı,*
*Dağ vüqarlı atamsan.*
*Könlümün arzuları,*
*Şirin dilli anamsan.*
*Odlar yurdu Vətənim,*
*Şanlı Azərbaycansan.*
*Təkcə sənə borcum var,*
*Sənə borcum var, Vətən!*

*Şərəfli əsgər ömrü*
*Mənə bəxş eyləmisən.*
*Söyləyəndə dərdimi*
*Səbrlə dinləmisən*
*Könlüm fəryad edəndə*
*Harayıma gəlmisən*
*Təkcə sənə borcum var,*
*Sənə borcum var, Vətən!*

*Sənə olan borcumu,*
*Sevgimlə ödəyərəm.*
*Sənin uğrunda mən,*
*Ölümə də gedərəm.*
*Adın Tanrıya yaxın,*
*Sənə səcdə edərəm.*
*Təkcə sənə borcum var,*
*Sənə borcum var, Vətən!*

# ANAMIZSAN, SƏN EY VƏTƏN!

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Nailə Mirməmmədli*

*Hər düşən axşamın aylı-ulduzlu,*
*Açılan sabahın bayraq rəngdədir.*
*Ey Vətən, hər zaman ünvanın-adın,*
*Səni sevənlərin ürəyindədir.*

*Nəqarət:*

*Torpağından güc almışıq,*
*Adın ilə ucalmışıq.*
*Qəm eyləmə qocalmışıq,*
*Anamızsan, sən ey Vətən.*

*Açıq səman, çölün-düzün*
*Müqəddəssən Vətən, özün!*
*Günəş kimi qartal gözün*
*Nur paylayır göydən Vətən!*

*Aylar-illər, fəsil ötür,*
*Karvan-karvan nəsil ötür.*
*Ağrıları- acıları*
*Köksün üstən özün götür.*



# SƏNDƏN BAŞQA KİMİM VAR Kİ!

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Nadir Əzimov*

*Qohumum, qardaşım, atam, anamsan,*
*Nənəmsən, babamsan, qoca dünyamsan.*
*Gözümün nurusan, açıq səmamsan,*
*Səndən başqa kimim var ki, ay Vətən!*

*Günündən gün, ayından ay vermisən,*
*Xoşbəxt anda payından pay vermisən.*
*Tək deyilsən, yanındayam demisən,*
*Səndən başqa kimim var ki, ay Vətən!*

*Həm qanadım, həm qolumsan, həm canım,*
*Anam Vətən! Anam Azərbaycanım.*
*Odlar yurdum! Hər dərdimə yananım,*
*Səndən başqa kimim var ki, ay Vətən!*
*Xınalıyam, saçlarımı boyadın,*
*Qollarıma qüvvət verdi, soy adın,*
*Məndən ötrü səcdəgahdır o adın,*
*Səndən başqa kimim var ki, ay Vətən!*

# AĞSAQQALLAR ŞURASI

***Bu nəğmə rəhmətlik Akademik Budaq Budaqovun məsləhəti ilə yazılmışdır.***

*Ötsə qərinələr, ötsə də illər,*
*Tarixdə iz qoyub, ulu nəsillər,*
*Yaddaşa həkk olub, hər kəlamları*
*Ağsaqqal nurundan bəhrələnmişik.*

*Məğrur yerişlidir, qartal gözlüdür,*
*Mənim diyarımın ağsaqqalları,*
*Nurani simalı, dağ vüqarlıdır,*
*Mənim diyarımın ağsaqqalları.*
*Ağsaqqal ayağı dəyən yerlərdə,*
*Bərəkət-ruzi var, xeyir-dua var.*
*Odlar diyarının salnaməsində,*
*Ulu öndər kimi böyük dühа var.*

*Ağsaqqal adının ucalığında,*
*Tanrı sevgisi var, günəş nuru var.*
*İsti nəfəsində, gur ocağında*
*Qorqud babamızın odu-qoru var.*

*14.06.2002*



# ADIM VƏTƏNLƏ QOŞA

***Sözləri: Zəminə Xınalı***
***Musiqisi: Nailə Mirməmmədli***

*Mənim məzarım üstə,*
*Vətən sözünü yazın.*
*Zirvəli dağ qoynunda,*
*Səngər əvəzi qazın.*

*Ruhum günəş nurundan*
*Yenidən canlanacaq.*
*Adım Vətənlə qoşa,*
*Heykəl tək ucalacaq.*

# MÜHAFİZƏÇİLƏR

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Mahir Əsgərov*

*Günəşlə oyanar, nura boyanar,*
*Vətən keşiyində məğrur dayanar,*
*Xalqın güvənc yeri igid oğullar,*
*Cəngavər, cəsurdur Mühafizəçilər.*

*Vətən babaların əmanətidir,*
*Xalqına xidməti dəyanətidir,*
*Keşikdə hər zaman məğrur-mətindir,*
*Şərəfli, qürurlu Mühafizəçilər.*

*Müqəddəs bayrağın, ana Vətənin,*
*Odlar diyarıdır, varın-dövlətin,*
*Həyatda ən böyük sonsuz sərvətin,*
*Qürurdu, namusdu Mühafizəçilər.*



# ƏSGƏR PAPAĞI

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Fatimə Əliyeva*

*Mən əsgər papağı geyinməliyəm,*
*Qadınam kişi tək öyünməliyəm.*
*Hərbin hər sirrini, hərb sənətini,*
*Ürəklə, vicdanla öyrənməliyəm.*

*Günahım nədir ki, anam qız doğub,*
*Adımı Xınalı Zəminə qoyub.*
*Bilmirəm hardandır, bu eşq, bu həvəs,*
*Qəlbimə kişilik qeyrəti dolub.*

*Yorğanım od olub, yastığımsa daş,*
*Vətən dara düşüb, eşit vətəndaş!*
*Ey papaq altında yatan oğullar,*
*Oyanın Vətəni qoruyaq qardaş.*

## EY VƏTƏN

***Sözləri: Zəminə Xınalı***
***Musiqisi: Nadir Əzimov***

*Səndən başqa bir diyarı sevmərəm,*
*Qürbət elə vətən deyə bilmərəm,*
*Öz dərdimi özgələrlə bölmərəm,*
*Doğma anam, Azərbaycan, ey Vətən!*
*Uca dağların, qoca dağların var,*
*Yaşıl meşə, həm barlı bağların var.*
*Yaxşı ki, igid, mərd oğulların var,*
*Dayanıb keşikdə sənin, ey Vətən!*

*Sinən dağlar gördü, qəmdən uzaq ol,*
*Tufandan, çiskindən, çəndən uzaq ol.*
*Dağ suyu, çeşməli, qaynar bulaq ol,*
*And yerimsən, yurd yerimsən, ey Vətən!*

*Sənsiz ötüşməsin baharım - qışım,*
*Torpaq olum, torpağına qarışım,*
*Ömrümə nur ələr yağan yağışın-*
*Səcdəgahım, qibləgahım, ey Vətən!*



## HAQQIN YOLU

***Sözləri: Zəminə Xınalı***
***Musiqisi: İsmayıl Əliyev***

*Qələbə yoluyla Şuşaya gəldin*
*Ali Baş Komandan var olun Sizi.*
*Sizinlə fəxr edir Azərbaycanım*
*Sevincdən söyləyir Millətim, Xalqım*
*Zəfərin mübarək Azərbaycanım.*

*Düşmənin ocağı, odu sönübdür,*
*Zülmət qaranlıqlar nura dönübdür,*
*Uğrunda nə qədər ərən ölübdür,*
*Sənə qurban olsun mənim öz canım*
*Zəfərin mübarək Azərbaycanım.*

*Qalib bir millətik, biz yenilməzik.*
*Haqqın yolu çətin, haqdan dönmərik.*
*Hər zaman hər yerdə Vətən deyərik,*
*Odlar Diyarısan Şöhrətim-şanım,*
*Zəfərin mübarək Azərbaycanım.*



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
İnv. № -26623-
PREZİDENT KİTABXANASI

## DÖYÜŞ BAYRAĞI

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Ağayar Fərhadov***

***Döyüş bayrağını qaldıran oğul,***
***Tanrı qollarına güc verəcəkdir.***
***Şuşaya bayrağı sancdığın günü,***
***Analar bacılar sevinəcəkdir***

*Nəqarət:*

***Neçə döyüşlərdən uğurla çıxdın sən,***
***Düşmənin damını, daşını yıxdın sən,***
***Qələbə çalanın əlini sıxdın sən, Vətən, ay Vətən.***

***Bayrağı öp oğul! Bayraq müqəddəs,***
***Vətən müqəddəsdir, bayraq müqəddəs,***
***Cəngavər libaslı hər oğul, hər qız,***
***Vətən keşiyində dayansın hər kəs.***



## VƏTƏN

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Nailə Mirrməmmədli***

***Dolanım dağına, düzünə vətənim.***
***Sən mənim al- əlvan çiçəkli çəmənim.***
***Ömrümə çiçək səp nur ələ, ey Vətən,***
***Səndən doymamışam, mən hələ, ey Vətən!***

***Tükənməz sərvəti, yaşıl meşəsi***
***Oxunar dillərdə Vətən nəğməsi.***
***Azəri dilinin şirin kəlməsi,***
***Ana Vətənimsən, Vətənim mənim.***

***Qəlbimdə nəğmələr hey aşıb-daşar.***
***Yurduma toy-düyün necə yaraşar.***
***Ürəkdə gör neçə arzu yaşadar.***
***Bu dünya durduqca yaşa, ey Vətən!***

*Nəqarət:*

***Gecələr çayların oxuyar zümzümə,***
***Şəlalə çağlayar, bənzəyər ömrümə.***
***Sevinc bəxş edirsən mənim hər günümə,***
***Səninlə fəxr edirəm, özüm ey Vətən!***

# ŞƏHİDLƏR

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: İsmayıl Əsədov*

*Torpaq üstə bitən güldü, çiçəkdi,*
*Köksü şırım-şırım, ləçək-ləçəkdi.*
*Hər zaman ürəkdən seviləcəkdi*
*Sorağı ellərdə gəzən Şəhidlər.*

*Göy üzündə ulduzdular, aydılar,*
*Kim deyər ki, yaşamaqdan doydular?*
*Yağıları yaman günə qoydular*
*Düşmənin başını əzən igidlər.*
*Söz mülkündə incidilər, dürdülər,*
*Hikmətdilər-açılmayan sirdilər.*
*Bir müqəddəs ocaqdılar-pirdilər*
*Saflığın üstündə əsən şəhidlər.*

*Zirvəyə qalxdılar ünvanlarıyla,*
*Bir dastan yazdılar ad-sanlarıyla*
*Vətən sevgisini al qanlarıyla*
*Sətirdən-sətirə düzən şəhidlər.*



# HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ
## (Məktəb marşı)

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

*Birləşin azəri-türk övladları,*
*Düşmənin ürəyi, həm qəlbi yansın.*
*Bütün yer üzündə sülhün sədası,*
*Azadlıq, ədalət qoy zəfər çalsın*
*Müstəqil dövlətimin hərbi məktəbi,*
*Heydər Əliyev adına hərbi məktəbi.*

*Hərbin sirlərini öyrədəcəksən,*
*Parlayan, sönməyən bir gələcəksən.*
*Hər zaman dillərdə sən gəzəcəksən,*
*Elimi- obamı bəzəyəcəksən.*
*Müstəqil dövlətimin hərbi məktəbi,*
*Heydər Əliyev adına hərbi məktəbi.*

*Vətən harayına neçə oğullar,*
*İgid, mərd zabitlər yetirdin özün.*
*Xoş müjdə, qələbə, sülh sorağını,*
*Zəfər bayrağını gətir sən özün!*
*Müstəqil dövlətimin hərbi məktəbi,*
*Heydər Əliyev adına hərbi məktəbi.*
*Müqəddəs şəhidlər ölməz ruhunu,*

*Tarix yaddaşında yaşadacaqsan.*
*Üç rəngli bayrağı mavi səmada,*
*Ən yüksək zirvəyə ucaldacaqsan.*
*Müstəqil dövlətimin hərbi məktəbi,*
*Heydər Əliyev adına hərbi məktəbi.*

*2001 ci il*

# AZƏRBAYCAN ALİ HƏRBİ DƏNİZÇİLİK MƏKTƏBİ
## (Məktəb marşı)

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Azər Dadaşov***

*Ana Vətənim üçün,*
*Pak vicdanlı oğullar-*
*Qəhrəmanlar yetirir*
*Hərbi Dəniz Məktəbi.*

*Anam Azərbaycanın*
*Mətin bir əsgəri tək,*
*Keşiyində dayanıb*
*Hərbi Dəniz Məktəbi.*

*Tarixlər yaddaşında*
*Silinməz izlər qoyur,*
*Günəşdən ilham alır*
*Hərbi Dəniz Məktəbi.*

*Xəzərin sahilində*
*Yurd salıb, yuva salıb.*
*Ulduz kimi parlayır*
*Hərbi Dəniz Məktəbi.*

*Üç rəngli bayrağımız*
*Vüqarla dalğalandı.*
*Saf sularda yol aldı,*
*Hərbi Dəniz Məktəbi.*



# AZƏRBAYCAN ALİ HƏRBİ TƏYYARƏÇİLİK MƏKTƏBİ
## (Məktəb marşı)

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Yusif Axundzadə***

*Çəkilsin göylərdən qara buludlar,*
*Günəş şəfəq saçsın yollarımıza,*
*Öyünür xalqımız sənin adınla,*
*Sirli bir dünyasan, adın gözəldi.*
*Yurdumun fəxrisən, coşan bir qəlbi,*
*Ali Hərbi Təyyarəçilik məktəbi.*

*Məramın sülh olsun, səadət olsun,*
*Düşmən yanar olsun, Tanrım qorusun!*
*Uzaq keçmişlərdən gəlir sorağı.*
*Şahinlər yuvası, qeyrət ocağı.*
*Yurdumun fəxrisən, coşan bir qəlbi,*
*Ali Hərbi Təyyarəçilik məktəbi.*

*Azəri yurdunun, Türk övladının,*
*Müqəddəs beşiyi sən olacaqsan.*
*Tarixin əbədi yaddaşlarında*
*Hər zaman, hər vaxtı yaşayacaqsan,*
*Yurdumuun fəxrisən coşan bir qəlbi,*
*Ali Hərbi Təyyarəçilik məktəbi.*

# ŞƏHİD ŞƏRBƏTİNİ İÇƏNLƏR GƏRƏK

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

*Vətənin dar günü, yaman günündə,*
*Vətən harayına gedənlər gərək.*
*Savaşda ölümə hazır olanlar.*
*Şəhid şərbətini içənlər gərək.*

*Silaha sarılıb, döyüşə gedən,*
*Vətəni qoruyan ərənlər gərək.*
*Tanrı dərgahında müqəddəs adlı,*
*Şəhid şərbətini içənlər gərək.*

*Şəhid anasının, həm övladının*
*Axan göz yaşını silənlər gərək.*
*Qanıyla torpağı suvara bilən.*
*Şəhid şərbətini içənlər.*



# TÜRK QANIDIR QANIMIZ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Gülsüm Abdulla qızı*

*Ey Vətən, ana Vətən.*
*Keşiyində durmuşuq.*
*Müstəqil Azərbaycan*
*Dövlətini qurmuşuq.*

*Durun millət ayağa,*
*Gedək qisas almağa,*
*Könüllü getməliyik*
*Vətəni qorumağa.*

*Vətənim odlar yurdu,*
*Od yurdu odlar yurdu.*
*Keşiyində dayanıb.*
*Basılmaz igid ordu.*

*Öz canımız, qanımız,*
*Vətənə qurban olsun*
*Qəzəbimiz coşarsa*
*Düşmənlər yanar olsun.*

*Vicdanı bayraq tutub,*
*İrəliyə gedək biz*
*Türk qanıdır qanımız*
*Kor olsun düşmənimiz.*

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK MAHNISI

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Həsən Abbasquliyev*

*Azərbaycan adını,*
*Vətən, torpaq andını,*
*Ucalardan uca tut,*
*Sən ey Vətən övladı.*
*Dünyanın hər yerində*
*Günəş kimi parla sən,*
*Ucal ən şərəfli, şanlı adla sən.*

*Nəqarət:*

*Həmrəylik dostluq deməK.*
*Həmrəylik birlik demək.*
*Xalqımın xoş niyyətin*
*Bəşərə çatdırmaq gərək.*

*Azərbaycan xalqına,*
*Gücünə, qeyrətinə,*
*Şanına, şöhrətinə*
*Alqış deyək!*

*Sən şanlı bir tarixsən,*
*Sən bir şərəf yolusan,*
*Bölünməz bir bəşərsən,*
*Sülhün keşiyindəsən.*
*Parlayan bir günəşsən.*
*Zəfər yürüşündəsən,*
*Azəri xalqının övladısan sən.*



# ƏSGƏR QARDAŞLAR

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nailə Mirməmmədli*

*Mətin addımların döyüntüsündən,*
*Lərzəyə düşübdür düşmən ordusu.*
*Əsgər qardaşların uca boyundan,*
*Qorxuya düşübdür düşmən ordusu.*
*Geriyə yol yoxdur, ancaq irəli!*
*Açılan sabahlar gözləyir sizi.*
*Daim sevindirin siz qəlbimizi*

*Yaşayın, var olun, əsgər qardaşlar.*
*Ürək döyüntüsü, qəlb çırpıntısı,*
*Qaranlıq gecənin tez açılması,*
*Nurlu sabahların işıq saçması,*
*Əllərinizdədir əsgər qardaşlar.*

*Anular fəxr edir, bacılar sevir,*
*Sizin qədrinizi bütün el bilir.*
*Sevincdən xalqım da, göz yaşın silir,*
*Yaşayın, var olun əsgər qardaşlar*

# MÜQƏDDƏS VƏTƏN

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Vüqar Camalzadə*

*Ey ana torpağım! Ey doğma Vətən!*
*Mənim and yerim də, yurd yerim də sən!*
*Vüqarım fəxrimsən, güvənc yerimsən,*
*Mənim ürəyimdə, həm qəlbimdəsən.*

*Qafqaz dağlarının döşündə özün,*
*Azəri yurdutək əbədiləşdin.*
*Hər daşın, qayanın döşündən axan,*
*Çağlayan çaylar tək sən nəğmələşdin.*

*Ey ana torpağım! Müqəddəs Vətən!*
*Mənim səcdəgahım, qibləgahımsan!*
*Tarix yaddaşımsan, ruhum, canımsan,*
*Dünyaya səs salan Azərbaycansan.*



# SƏRHƏDÇİ NƏĞMƏSİ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

*Bütov Azərbaycan sərhədlərini*
*Qorumaq peşəsi çox şərəflidir.*
*Günəş şəfəqiylə nura boyanan,*
*Doğma yurdumuzun sərhədləridir.*

*Nəqarət:*

*Vətən sərhəddinin keşiyi bizim*
*Müqəddəs andımız, amalımızdır.*
*Odlar diyarında Vətən torpağı,*
*Səcdəgah, qibləgah vüqarımızdır.*

*Qoruyaq Vətənin sərhədlərini*
*Ürəyimiz kimi, canımız kimi.*
*Kükrəyək dəniz tək, çağlayaq çaytək,*
*Damarda qaynayan qanımız kimi.*

# DÖVLƏT GÖMRÜK AKADEMİYASI

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

***Gömrük orqanında hüquqşünaslar,***
***Hüquqi əsasla xidmət edirlər.***
***Uğurla inamla hər bir əməkdaş,***
***Vətənə sədaqət andı içirlər.***
***Dövlətinə, xalqına xidmətdir missiyası,***
***Dövlət Gömrük Komitənin Akademiyası.***

***Gömrük sərhəddini keçənlər bilir,***
***Qanunu pozanlar bağışlanılmır.***
***Güclü nəzarət var məntəqələrdə,***
***Qanunsuz nə varsa gözdən yayınmır,***
***Dövlətinə, xalqına xidmətdir missiyası***
***Dövlət Gömrük Komitənin Akademiyası.***

***Öndərdən əmanət Müstəqil Vətən,***
***Bayraq dalğalanır uca göylərdən,***
***Vətənə gələndə uzaq ellərdən.***
***İnsanlar razıdır gömrükçülərdən.***
***Dövlətinə, xalqına xidmətdir missiyası,***
***Dövlət Gömrük Komitənin Akademiyası.***



# HƏRBİ AND

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Minəxanım Əkrəmqızı*

***Vətən keşiyində dayanan oğul,***
***Müqəddəs and olub hərbi andımız.***
***Ana Vətənimiz Azərbaycanın***
***Uğrunda içilər hərbi andımız***

***Hərbi and müqəddəs olduğu qədər,***
***Şərəfdir şöhrətdir, qürur vicdandır.***
***Ulu babalardan əmanət qalan***
***Ana Vətənimiz Azərbaycandır.***

# VƏTƏN SEVGİSİ

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: İsmayıl Əsədov***

***Geyib zabit libasını***
***Hərbi sevdirdin mənə.***
***Çəkdin yurd ağrısını***
***Yurdu sevdirdin mənə.***
***Savaş üçün, barış üçün***
***Oldun yollar yolçusu,***
***Vətən sevməyin özü***
***Məhəbbətin doğrusu.***
***Mənə nə gözəl sevgi***
***Vətən sevgisi verdin.***
***Bu sevgini özün də***
***Köksündə gəzdirirdin.***



# İLK BEŞİYİM, SON MƏNZİLİM VƏTƏNİM

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: İsmayıl Əsədov***

***Bağları ətirli, gül bənövşəli,***
***Zirvəsi qartallı yaşıl meşəli,***
***Büllur bulaqlısan, sərin çeşməli***
***İlk beşiyim, son mənzilim Vətənim.***

***Qibləgahım and yerim, duz çörəyim***
***Yaman gündə Güvənc yerim gərəyim,***
***Odlar yurdum, hey döyünən ürəyim***
***İlk beşiyim, son mənzilim Vətənim.***

***Hər qarışı müqəddəs pir ocaqlı,***
***Doğma əziz, isti ana qucaqlı***
***Günəş üzlü sülh səadət soraqlı***
***İlk beşiyim, son mənzilim Vətənim.***

***Səndədir Ömrümün həyat yolları***
***Səndədir könlümün ilk arzuları***
***Xınalı Zəminənin fəxri vüqarı***
***İlk beşiyim, son mənzilim Vətənim.***

# ŞANLI QƏLƏBƏ

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: İlqar Novruzov*

*Ucaldı göylərə Vətən bayrağı*
*Yayıldı ellərə zəfər sorağı*
*Əsgər nəfəsilə canlandı yurdum.*
*Şanlı qələbəni yetirdi ordum*

*Nəqarət:*

*Qələbə, qələbə, şanlı qələbə,*
*Xalqımız qovuşdu şanlı zəfərə,*
*Qarabağ həsrəti sona yetişdi,*
*Qayıtdıq müqəddəs doğma yerlərə.*

*Şəhid anaları batmasın qəmə,*
*Şəhid ölümüylə doğulur yenə,*
*Günəş nur ələsin bütün aləmə,*
*İgidlər can verdi doğma Vətənə.*

*İrəli ərənlər, igid əsgərlər,*
*Sizə qucaq açıb müqəddəs yerlər,*
*Siz ümid yerisiz, siz ey igidlər*
*Sizi salamlar müqəddəs yerlər.*



# XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Ağayar Fərhadov*

*Odlar diyarıdır Azərbaycanım,*
*Vətənə qurbandır mənim öz canım,*
*Düşmənə nifrəti yağdırır xalqım*
*Xalqıma yetirin şanlı zəfərlər*
*Xüsusi Təyinatlı Qüvvələr.*

*Ali Baş Komandan Əmrinə hazır,*
*Vətən bayrağını göyə ucaldır.*
*Siz güvənc yerisiz Siz ey igidlər Xalqıma yetirin*
*Şanlı zəfərlər Xüsusi Təyinatlı Qüvvələr.*

*Şəhid qanlarını yerdə qoymayın*
*Vətən torpağını səngər eyləyin,*
*Dağda da, daşda vətən söyləyin*
*Xalqıma yetirin Şanlı zəfərlər.*
*Xüsusi Təyinatlı Qüvvələr.*

*Şəhidlərin qisasını alın Siz,*
*Siz döyüşdə pələngsiniz ,şirsiniz,*
*Siz xalqıma gərəkli igidsiniz*
*Xalqıma yetirin Şanlı zəfərlər.*
*Xüsusi Təyinatlı Qüvvələr*

# BİZ GƏLMİŞİK QARABAĞA

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nailə Mirməmmədli*

***Od içindən keçən əsgər***
***Düşmənlərdən qisas aldı.***
***Son döyüşdə qana qanla***
***İgidlərim zəfər çaldı.***

***Ağdam, Laçın, Kəlbəcəri,***
***Zəngilanı, Qubadlını,***
***Xankəndini, Qubadlını,***
***Fizulini, Cəbrayılı,***
***Qədim qala Şuşamızı,***
***Elimizi, obamızı***
***Azad edib yağılardan***
***Son qoymuşuq bu işğala.***

***Biz gəlmişik Qarabağa.***

***Qarabağım azad oldu,***
***Yurdlarımız abad oldu,***
***Şəhid ruhları şad oldu,***
***Qalib oldu Şanlı ordu.***



# ŞUŞA QƏDİM QALA

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: İsmayıl Vəliyev*

***Şuşa bulağının nur gözlərində.***
***Natavan dayanıb sözün sehrində,***
***Xan əmi, Bülbülün, Üzeyirin də,***
***Məclisi qurulub Cıdır düzündə.***

***Bayrağa bürünüb Şuşa dağları,***
***Şad olub sevinir şəhid ruhları,***
***Var olun Şuşaya müjdə yetirən***
***Müzəffər ordumun mərd oğulları.***

***Şuşa qalasından asılan bayraq,***
***Əsrlər boyunca dalğalanacaq.***
***Qızılı qan ilə yazılan zəfər***
***Tarixi qələbə yadda qalacaq.***

***Şuşa qədim qala əsrin yaddaşı,***
***Qəhrəman igiddir hər vətəndaşı.***
***Təbibdir, loğmandır, torpağı, daşı,***
***Dünyadan qocadır bilinmir yaşı.***

# TOPÇU VÜSAL

*Sözləri: Zəminə Xınalı*

*2020-ci il Vətən müharibəsində düşmənlərə qan udduran Vüsal Şahkərimova ithaf olunur*

***Vüsalına çatan Vüsal,***
***Qəhrəmandır gözümüzdə,***
***Dastanlarda, dildə gəzdi,***
***Vüsal oldu sözümüz də.***

***Od-alovun bağrın yardın,***
***Düşmənləri parçaladın.***
***Topçu Vüsal, igid əsgər,***
***Xalqın gözündə ucaldın.***

***Döyüşdə öndə gedirdin***
***Savaşı sona yetirdin,***
***Zəfər Qələbə gətirdin,***
***Topçu Vüsal, igid əsgər.***



# QALİBİYYƏT MARŞI

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Ağayar Fərhadov*

***Döyüş meydanında, hərb meydanında,***
***Müzəffər ordumuz qalib gəlibdir.***
***Vətən əsgərinin keçdiyi yola***
***Anamız Qarabağ xalı salıbdır.***

***Qələbə! Qələbə! Şanlı qələbə,***
***Xalqımız qovuşdu şanlı zəfərə,***
***Qələbə yenilməz ərənlərindir,***
***Qələbə Vətəni sevənlərindir.***

***Vətənin uğrunda canından keçən,***
***Əbədi yaşayan şəhidlər ölməz.***
***Yumruq tək bir olub, birləşən xalqın,***
***Önündə düşmənlər dayana bilməz.***

***Vətənə gərəkli övlad olaq biz,***
***Qoy coşub, çağlasın Vətən sevginiz.***
***Ucaldın göylərə üçrəng bayrağı,***
***Siz olun xalqımın arxa, dayağı.***

# HEÇ UNUTMAZ ANA VƏTƏN

# ŞƏHİD GENERAL MİLLİ QƏHRƏMAN POLAD HƏŞİMOVA İTHAF

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Ağayar Fərhadov***

***Üzündəki təbəssüm***
***Sanki Tanrı nurudur,***
***Polad kimi general***
***Azərbaycan oğludur.***

***Öz canından artıq sevdi,***
***Bu torpağı, bu diyarı,***
***Vətən üçün candan keçdi,***
***Uca tutdu o, bayrağı.***

***Ey yurdumun igidləri,***
***Düşmənlərə qan uddurun.***
***Bu torpağın keşiyində***
***Siz mərd durun, sayıq durun.***

***Heç unutmaz ana Vətən***
***Polad kimi qəhrəmanı,***
***Bir alovlu nəğmə olun***
***Adı gəzər bu dünyanı.***



# VƏTƏNƏ ANA DEDİN

# QAZAX MAHALI, ASLANBƏYLİ KƏNDİNİN QƏHRƏMAN OĞLU ŞƏHİD SƏRXAN MUSTAFAYEVƏ İTHAF

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: İlahə Qismət***

***Dünyaya gələn gündən***
***Vətənə ana dedin.***
***Odlar yurdu Vətəni,***
***Canından çox sevirdin.***

***Mənfur, xain düşmənin***
***Gülləsinə tuş gəldin.***
***Son nəfəsdə, son anda,***
***Yenə də Vətən dedin.***

***Vətənə məhəbbətin***
***Qaynayırdı qanında,***
***Səninlə fəxr edirdi.***
***Anamız Azərbaycan da,***

***Ölümsüzlük zirvəsi,***
***Alın yazın, qismətin.***
***Yaddaşlara həkk oldun,***
***Bu xalqın, bu millətin***

# EY ŞANLI ƏLAHİDDƏ ÜMUMQOŞUN ORDUSU

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Mahir Əsgərov*

*Əlahiddə Ordunun*
*Banisi Heydər ata!*
*Güclü ordu yaratdı,,*
*Naxçıvanda bu yurda.*
*Ali baş Komandanı*
*İlham Heydər oğludur.*
*Naxçıvanda Vətənin,*
*Rəşadətli ordusu,*
*Ey Şanlı Əlahıddə*
*Ümumqoşun Ordusu!*

*Vətənimin keşiyin*
*gecə-gündüz çəkmisən.*
*Bayraq, torpaq uğrunda,*
*Şərəfli and içmisən,*
*Yurdumuza göz dikən*
*Düşmənləri yenmisən.*
*Döyüşlərdə hər zaman*
*Qələbə əzmlisən.*
*Naxçıvanda Vətənin*
*Rəşadətli ordusu,*
*Ey Şanlı Əlahiddə*
*Ümumqoşun ordusu.*

*Var ol, Azərbaycanım,*
*Var ol, ölkə rəhbərim,*
*Dünyaya səs salıbdır,*
*Orduda şah əsərin.*



*Zirvələri fəth edir,*
*Zabitlərin, əsgərin,*
*Xalqa böyük ruh verir,*
*Günnütdə zəfərlərin*
*Naxçıvanda Vətənin*
*Rəşadətli ordusu*
*Ey Şanlı Əlahiddə*
*Ümumqoşun Ordusu.*

*Azərbaycan Bayrağı*
*Zirvələrə ucalır.*
*Qədim Türk Dövlətini,*
*Qardaş deyib çağırır.*
*Ordumuzun qüdrəti*
*Eldən-elə yayılır,*
*Qəhrəmanlar, igidlər*
*Öndər yurdu adlanır,*
*Naxçıvanda Vətənin*
*Rəşadətli Ordusu,*
*Ey Şanlı Əlahiddə*
*Ümumqoşun Ordusu.*

# EY TANKÇILAR, EY TOPÇULAR İRƏLİ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: İsmayıl Əsədov*

*Mərmiləri yağış kimi yağdırın*
*Düşmənləri yuvasında yandırın,*
*Bayraqları zirvələrə qaldırın.*
*Ey tankçılar, ey topçular irəli.*

*Azəri türk qardaş deyib çağırır*
*Bayrağımız zirvələrə ucalır.*
*İgidlər qanıyla qələbə yazır*
*Ey tankçılar, ey topçular irəli.*

*Allah özü pənahında saxlasın*
*Bayrağımız Qarabağda ucalsın.*
*İgidlərim düşmənlərdən öc alsın.*
*Ey tankçılar, ey topçular irəli.*
*Kül ediblər ocaqları, məbədi,*
*Məhv olubdur, xalqımızın sərvəti.*
*Düşmənlərin pislik olub niyyəti,*
*Ey tankçılar, ey topçular irəli.*



# HEYDƏR ƏLİYEV ADINA HƏRBİ LİSEYİM

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

*Tarixi şəxsiyyət, böyük bir düha*
*Yeni nəfəs verdi Milli Orduya.*
*Adı ucalarda Vətən səsidir,*
*Amalım, fəxrimdir, andım, diləyim,*
*Heydər Əliyev adına Hərbi Liseyim.*

*Hərbi Məktəblərdə, hərb tarixini,*
*Özünün gücüylə yaratdı Öndər.*
*Qədim Naxçıvanda Azərbaycanda*
*Üçrəngli bayrağı ucaltdı Öndər.*
*Amalım, fəxrimdir, andım, diləyim,*
*Heydər Əliyev adına Hərbi Liseyim.*

# DƏNİZÇİLƏR VAR OLSUN

*Sözləri: Zəminə Xınalı*
*Musiqisii: Faiq Şucəddinov*

*Əsrlərə bərabər səfərlərə yol alıb,*
*Tarixlər yaddaşında əbədi bir iz salıb.*
*Dənizlərdən dənizə dalğaları yarıb,*
*bayrağımız zirvələrə ucalıb,*
*Günəş kimi parlaqdır bu günü gələcəyi,*
*Azərbaycan Xəzər Dəniz gəmiçiliyi.*

*Nəqarət:*

*Mavi gözlü Xəzərdə dənizçilər var olsun,*
*Müstəqil dövlətimiz hər an bəxtiyar olsun.*
*Yollarız uğurlu, yolun saf sular olsun,*
*Yurdumuzun mərd, igid oğulları var olsun,*
*Günəş kimi parlaqdır bu günü gələcəyi,*
*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi.*



# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Minəxanım Əkrəmqızı*

*Vətənim örnək olub, səs salıb hər bir yana,*
*Dalğalar səcdə edir üçrəngli bayrağıma,*
*Qələbə sorağıyla damarlarda coşur qan.*
*Sən ərənlər diyarı, Vətənim Azərbaycan.*

*Nəqarət:*

*Dəniz Akademiyası, şan-şöhrətin var olsun,*
*Dalğaların qoynunda Sizə uğurlar olsun.*
*Xalqımın güvənc yeri, cəsur oğullar olsun,*
*Dövlətinə, xalqına xidmətdir missiyası,*
*Azərbaycan Dövlət Dəniz Akamiyası,*

*Yurdumun sərvətidir tarixi zənginliyi,*
*Millətimin, xalqımın dövlət müstəqilliyi.*
*Gəmilərə yol açır dənizin ənginliyi,*
*Sirli bir aləm olub, dənizçinin missiyası,*
*Azərbaycan Dövlət Dəniz Akademiyası.*

# VETERANLAR MARŞI

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Şahin Musaoğlu*

*Siz Vətən mülkinin şöhrəti-şanı*
*Yurdumun sevdalı qəhrəmanları*
*Sizsiz güman yeri qeyrət ünvanı,*
*Müzəffər ordunun veteranları.*

*Nəqarət:*

*Bu günün sabahın veteranları,*
*Ümidin nüvanın veteranları.*
*Tarixlər yazan da, yaradan da siz!*
*Savaşlar qazanan bacaran da Siz,*
*Qalıb bayraqlar tək ucalan da siz,*
*Müzəffər ordunun veteranları.*



# XÜSUSİ MÜHAFİZƏ BRİQADASI

*Sözləri: Zəminə Xıanlı*

*Musiqisi: Ağa Əliyev və Vasif Hüseynov*

*Üçrəngli bayrağın, ana vətənin*
*Müqəddəs keşiyi sənindir, sənin*
*Gecə də, gündüz də şad xəbərlərin*
*Müjdəsin yetirir rabitəçilər.*
*Yayılsın dünyaya sülhün sədası,*
*Xüsusi Mühafizə Briqadası.*

*Vətən sevgisi var,torpağa –daşa,*
*Məramı yetməkdi sülhə barışa,*
*Səngərləri sədləri hey aşa-aşa,*
*Amalı son qoymaq hərbə savaşa,*
*Yayılsın dünyaya sülhün sədası*
*Xüsusi mühafizə briqadası.*
*Yolunuz uğurlu yalnız irəli,*
*Odlar diyarın igid əsgəri.*
*Adınız sanınız dillər əzbəri,*
*Yetirin ellərə şanlı zəfəri.*
*Yayılsın dünyaya sülhün sədası*
*Xüsusi mühafizə briqadası.*

*Vətən keşiyində, mühafizəçilər,*
*Xidmətdə öndədir hər an seçilər.*
*Anan Azərbaycan Şanlı Dövlətin,*
*Vətənimin hərbi andı içilər.*
*Yayılsın dünyaya sülhün sədası*
*Xüsusi mühafizə briqadası.*

# QOCAMAN VETERANLAR

*Sözləri: Zəmina Xınalı*

*Musiqisi: Minəxanım Əkrəmqızı*

*Sərhədləri qoruyub,*
*Səngərdə keşik çəkib,*
*Coşğun dənizdən keçib.*
*Səmalarda iz qoyub*
*Vətənin hər qarışın*
*Sevib canı qanı tək,*
*Vətən uğru döyüşüb*
*Qocaman Veteranlar,*
*Gələcək nəsillərə*
*Örnəkdir Veteranlar*
*Cəsur igid şərəfli*
*Qocaman Veteranlar,*
*Qəhrəmanlıq Tarixin*
*Yaradan Veteranlar*
*Sizinlə qürur duyur*
*Ananız Azərbaycan!*
*Oddan alovdan keçib*
*Şərəfli bir and içib*
*Xoş müjdə qələbəni*
*Xalqımıza yetirib,*
*Millətlərin içində*
*Ucadan uca xalqım,*
*Sənə şöhrət gətirib*
*Qocaman Veteranlar.*



# FÖVQƏLADƏ HALLAR AKADEMİYASI

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

*Başımız üstündə üçrəngli bayraq*
*Uca zirvələrdə dalğalanacaq ,*
*Xalqın keşiyidir andı amalı*
*Vətən sevgisidir dövləti varı,*
*Yayılıb ellərə səsi sədası*
*Fövqəladə Hallar Akademiyası.*

*Çətinə düşənin dara düşənin,*
*Çovğuna düşənin qara düşənin,*
*Köməyinə yetər xilas eyləyər,*
*Xalqımız sizinlə hər an fəxr edər*
*Yayılıb ellərə səsi sədası*
*Fövqəladə Hallar Akademiyası.*

*Vətənə zabitlər mərdlər yetirir,*
*Keşikdə hər zaman məğrur mətindir.*
*Şərəfi qüruru ləyaqətidir.*
*Xalqına xidməti dəyanətidir,*
*Yayılıb ellərə səsi sədası*
*Fövqəladə Hallar Akademiyası*

# AZƏRBAYCANIN SÜLHMƏRAMLI QÜVVƏLƏRİNƏ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Həsən Abbasquliyev*

*Odlar Yurdu ana Vətənim*
*Azadlığa özü yetənim*
*Həyat verib torpağa daşa,*
*Son qoyacaq hərbə savaşa.*
*Sülh Məramlı Qüvvələr*

*Vətənimin şanlı bayrağı*
*Ay ulduzdur onun çırağı.*
*Fərəh verib ürəyimizə*
*Açıq səma gətirir bizə.*
*Sülh Məramlı Qüvvələr*

*Qartal kimi qanad açır o,*
*Zirvələrdən işıq saçır o ,*
*Azadlığın haqqın səsidir,*
*Dünyanın sülh elçisidir,*
*Sülh Məramlı Qüvvələr*



# CƏNGİ ÇALMIŞAM

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: İsmayıl Əsədov*

*Mən beşik başında övladlarıma*
*Layla çalmamışam, cəngi çalmışam.*
*Rahatlıq bilməyib ömür yolunda.*
*Həyəcan təbili zəngi çalmışam.*

*Eşitsin dünyanın bəşər övladı*
*Vətənin sevgisi özü layladır.*
*Cəngavər libaslı mərd oğullarım*
*Ana ürəyini nura boyadı.*

*Haqqım halal olsun sizə övladım,*
*Mənim arzularım həyata keçdi.*
*Vətən sevgisi ilə böyüdükcə siz,*
*Tanrının sevgisi sizləri seçdi.*

*"Misriyə", "Cəngiyə" köklənin hər vaxt,*
*Polad ruhunuzun təməli dərin.*
*Döyüş meydanından, hərb meydanından,*
*Zəfər sorağını mənə göndərin.*

# ADIM VƏTƏNLƏ QOŞA

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nailə Mirməmmədli*

*Mənim məzarım üstə,*
*Vətən Sözünü yazın.*
*Zirvəli dağ qoynunda*
*Səngər avazi yazın.*

*Ruhum günəş nurundan*
*Yenidən canlanacaq.*
*Adım Vətənlə qoşa ,*
*Heykəl tək ucalacaq.*



# TARİXİ QƏLƏBƏ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Məhəmməd Allahverdiyev*

*Ali Baş Komandan əmrinə hazır,*
*Müzəffər ordumuz qələbə çalır,*
*Odlar diyarının igid əsgəri,*
*Zəfər sorağını ellərə yayır.*

*Tarixi qələbə zəfər bayramı,*
*Analar,analar yol gəlirik biz,*
*Döyüş meydanından, hərb meydanından,*
*Xoş müjdə ,qələbə yetiririk biz.*

*Səcdə et ! Bayrağa ey Vətən oğlu,*
*Bu bayraq uğrunda qanlar tökülüb,*
*Vətənin uğrunda canından keçən,*
*Üçrəngli bayrağa şəhid bükülüb.*

# ŞƏHİD PİLOTLAR

*Sözləri :Zəminə Xınalı*

*2016-cı il Aprel döyüşlərində şəhid olmuş Mayor Təbriz Musazadə, mayor Urfan Vəlizadə və baş leytenant Əbubəkr İsmayılovun əziz xatirəsinə*

*Vətən dara düşdü, çağırdı Sizi,*
*Vətənin cəngavər mərd pilotları.*
*Sizə qucaq açdı Vətən yolları,*
*Vətənin uğrunda şəhid oldunuz,*
*Cənnət məkansınız şəhid pilotlar.*

*Aylar da keçəcək, illər ötəcək,*
*Sizləri hər zaman xalqım sevəcək*
*Ruhunuz bu yurdu azad edəcək,*
*Cənnət məkansınız şəhid pilotlar.*

*Təbiət yas tutub, qəm libasında,*
*Hər fəsil buludlar dolur, boşalır,*
*Göydən yağan yağış Sizi ağlayır,*
*Cənnət məkansınız şəhid pilotlar.*

*Məzar daşlarınız soyuq olsa da,*
*Könlüm dərd əlindən oyuq olsa da.*
*Vətən çiçəkləri vaxtsız solsa da,*
*Cənnət məkansınız şəhid pilotlar.*



# AND İÇƏN OĞUL

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Nadir Əzimov*

*Üçrəngli bayrağa and içən oğul*
*Bayrağın mübarək, andın mübarək.*
*Vətən torpağında boy atmısan sən,*
*Vətən əsgərisən andın mübarək.*

*Bu gündən and içdin ana vətənə,*
*Vətən oğul dedi sən tək igidə.*
*Yaralı torpağın qisasını al,*
*Qan uddur yağıya, mənfur düşmənə.*

*Barıt qoxusundan mərmi səsindən,*
*Qarşında diz çökür mənfur düşmənlər.*
*Sönən ocaqları yanan yurdları,*
*Cənnət məkan eylə Vətən əsgəri.*

# VƏTƏN BÖLÜNMƏZDİR

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: A.Səlimov*

*Neçə ki, dünyada hərb var, savaş var,*
*Analar göz yaşın gizlədə bilməz.*
*Aqil babaların bir kəlamı var-*
*Vətən bölünməzdir, Şəhidlər ölməz.*

*Odlar diyarıdır Azərbaycanım,*
*O, ancaq qəhrəman igidlərindir.*
*Tanrı dərgahında ulu məkanda, Cənnət yer!*
*O, ancaq şəhidlərindir.*

*Vətənin uğrunda canından keçən,*
*Əbədi yaşayan şəhidlər ölməz.*
*Yumruq tək bir olub birləşən xalqın.*
*Önündə düşmənlər dayana bilməz.*



# VƏTƏN ÜÇÜN ŞƏHİD OLSAQ

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: Türk xalq musiqisi*

*Düşmən alıb üstümüzü,*
*Dardadır yenə də Vətən,*
*Axı bizə oğul deyib,*
*Sizə də, mənə də Vətən.*

*Nəqarət:*

*İgidlərim, ərənlərim*
*Haraylayır dağ-daş biz,*
*Haqq yolunda qarşılayın,*
*Qoy müqəddəs savaş bizi.*

*Savaşlarda, döyüşlərdə,*
*İrəlidə gedərik biz,*
*Vətən üçün şəhid olsaq,*
*Cənnət məkandır yerimiz.*

# İNCƏ DUYĞULARDA YAŞAYACAQSAN

*(Azərbaycanda, Bakıda Silahlı Qüvvələrin Hərbi Attaşesi kimi xidmət etmiş Türk general – mayoru Zəki Paşa Durlanıkın əziz xatirəsinə)*

***Sözləri: Zəminə Xınalı***
***Musiqisi: Ələsgər Xəlifə***

*Günəş şəfəqilə, günəş nuru ilə,*
*Tanrı sevgisiylə dünyaya gəldin.*
*Vaxtsız ölümünlə, son gedişinlə,*
*Azəri-türk xalqın qəlbin göynətdin.*

*Əziz Ramazan günü, Ramazan ayı,*
*Tanrı dərgahına qovuşdu ruhun,*
*Sayın Zəki Pasa, sevimli insan,*
*İncə duyğularda yaşayacaqsan.*

*Sayın Zəki Paşa Türk dünyasında,*
*Atatürk adını müqəddəs bildi,*
*Tanrı sevgisiylə dünyaya gəldi,*
*Müqəddəs insan tək dünyadan köçdü.*



# AZƏRBAYCAN TÜRKİYƏ

***Sözləri: Zəminə Xınalı***
***Musiqisi: İlahə Qismət***

*İki dövlət, bir millətin övladı,*
*Azərbaycan Türkiyəylə qoşadı.*
*Qardaş kimi bu dünyada yaşadı,*
*Yaşa var ol, Azərbaycan - Türkiyə.*

*Əsrlərdir qoşa gəlir səsimiz,*
*Könüllərdə qoşa vurdu qəlbimiz.*
*Dünya bilir türk əsridir əsrimiz,*
*Yaşa var ol, Azərbaycan - Türkiyə.*

*Yer üzünə sülh, barışı gətirən*
*Dünyamıza xoş müjdəni yetirən.*
*Cənnət-diyar ,gül-çiçəklər bitirən,*
*Yaşa var ol, Azərbaycan -Türkiyə*

# AZƏRBAYCAN - TÜRKİYƏ DÜNYASI

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: N.Əzim***

***Odlar yurdu od diyarı,***
***Qəhrəmandır oğulları.***
***Əzəmətin məğrur-mətin,***
***Nə gözəldir dəyanətin,***
***Tanrı günəş dühası -***
***Azərbaycan türk dünyası.***
***Yasa, yaşa türk dünyası.***

***Bayrağımız ucalara,***
***Zirvələrə yol açsın.***
***Qəlbimizdə arzulara***
***Şan-şöhrətin nur saçsın.***
***Əzbər olub xoş sədası,***
***Azərbaycan türk dünyası,***
***Yaşa, yaşa türk dünyası.***

***Əməli çiçək açsın,***
***Səsi ellərə çatsın,***
***Dağ kimi vüqarlıdır,***
***Dosta etibarlıdır,***
***Halal-haqdır mayası,***
***Azərbaycan türk dünyası,***
***Yaşa, yaşa türk dünyası.***



# ŞUŞAYA BAYRAĞI ASAN CƏNGAVƏR

***(2020-ci il Vətən müharibəsində Şuşaya Azərbaycan bayrağını asan polkovnik-leytenant Rəşad Aslanova ithaf)***

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: Mahir Əsgərov***

***Şuşaya bayrağı asan cəngavər,***
***Tanrı qollarına güc verib sənin.***
***Torpağa, bayrağa olan sevginlə,***
***Qəhrəman oğlusan, Azərbaycanın.***

***Vətən bütövləşdi, millət birləşdi.***
***Şuşa gözəlləşdi, səngər gül açdı.***
***Aslanov Şuşaya bayraq asanda,***
***Namərd düşmənlərsə geriyə qaçdı.***

***Dəmir iradəli baxışlarında,***
***Vətənə məhəbbət, sevgi duyulur.***
***Rəşadı görəndə mənfur düşmənin,***
***Dizləri titrəyir, dili quruyur.***

## AZƏRBAYCAN ƏSGƏRİ

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: İlahə Qismət*

***Boyun uca çinardır,***
***Yolun yağışdır qardır,***
***Ünvanın uca dağdır,***
***Azərbaycan əsgəri.***

***Od içindən keçirdən.***
***Yurda keşik çəkirsən.***
***Xalqımın vüqarı sən,***
***Azərbaycan əsgəri.***

***Keç səngərdə, səngərə.***
***Yenə dəstə- dəstə sən.***
***Üçrəngli bayrağımı***
***Qaldır başın üstə sən.***

***Qələbə amalıyla***
***Sazla, sözünlə, İlhamla***
***İrəliyə addımla,***
***Azərbaycan əsgəri.***



## ZƏFƏRİN MÜBARƏK AZƏRBAYCANIM

*Sözləri: Zəminə Xınalı*

*Musiqisi: Mahir Əsgərov*

***Qələbə yoluyla***
***Şuşaya gələn***
***Ali Baş Komandan***
***var olun Sizi,***
***Sizinlə fəxr edir Azərbaycanım ,***
***Zəfərin mübarək***
***Azərbaycanım,***

***Düşmənin ocağı,***
***Odu sönübdür,***
***Zülmət qaranlıqlar***
***nura dönübdür,***
***Uğrunda nə qədər***
***Ərən ölübdür,***
***Sənə qurban olsun***
***mənim öz canım,***
***Zəfərin mübarək Azərbaycanım.***

***Qalib bir millətik,***
***biz yenilmərik,***
***Haqqın yolu çətin,***
***haqdun dönmərik,***
***Hər zaman, hər yerdə***
***Vətən deyərik,***
***Odlar diyarısan,***
***şöhrətim-şanım,***
***Zəfərin mübarək,***
***Azərbaycanım.***

# ŞƏHİD ŞƏRBƏTİNİ İÇDİ ŞƏHİDLƏR

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: M.Əsgərov*

*Hər kəsdə hünər yox, döyüşə getsin,*
*Savaşa getdilər, igidlər -ərlər.*
*Vətəni ürəkdən sevdilər deyə.*
*Şəhid şərbətini içdi şəhidlər.*

*Elə bil od yağdı mavi göylərdən,*
*Mərmilər töküldü, torpağa dən-dən.*
*Qırmızı qan rəngli, tər çiçəklərdən,*
*Torpaqdan kəfən də biçdi şəhidlər.*

*Gəzib dolaşdılar aranı dağı,*
*İşığa döndülər bəzən sübh çağı,*
*Öpüb oxşadılar ana torpağı,*
*Şirin canlarından keçdi şəhidlər.*



# VƏTƏN, SABAHIN XEYİR!

*Sözləri: Zəminə Xınalı*
*Musiqisi: İ.Qismət*

*Oyandım, yuxudan ayılan kimi,*
*Söylədim: - ay Vətən, sabahın xeyir!*
*Vətən keşiyində dayanan kimi,*
*Söylədim : - ay Vətən, sabahın xeyir!*

*Nə gözəl nur saçıb günəş ellərə,*
*Çəmənlər xalıdır, yaşıl çöllərə,*
*Vurğunam göy gözlü mavi göllərə,*
*Söylədim : - ay Vətən, sabahın xeyir!*

*Sərhəddin, səngərin, üç rəng bayrağın,*
*Bayram libaslıdır o, xoş növrağın,*
*Açılıb üzümə ana qucağın,*
*Söylədim : - ay Vətən, sabahın xeyir!*

# VƏTƏNİN KEŞİYİNDƏ

***Sözləri: Zəminə Xınalı***

***Musiqisi: M.Allahverdiyev***

*Boy atıb böyümüşəm*
*Anamın beşiyində.*
*Vətən kəlməsin duydum,*
*Evində-eşiyində.*
*Bu günsə dayanmışam*
*Vətənin keşiyində.*

*Hərb peşəsin sevmişəm,*
*Şərəf - şöhrət bilmişəm.*
*Baharın ilk günündə,*
*Bu dünyaya gəlmişəm:*
*Öncə Vətən demişəm-*
*Vətənin keşiyində.*

*Günəşə boylanmışam,*
*Tanrımdan güc almışam.*
*Əsgər adı almışam,*
*Marşlar, mahnı yazmışam.*
*Uğurlar qazanmışam*
*Vətənin keşiyində.*



## Mündəricat


Ön söz .......... 4
ALİ BAŞ KOMANDANIM .......... 7
HEYDƏR ATAMIZ .......... 8
MÜDRİK SƏRKƏRDƏ .......... 9
SƏNƏ BORCUM VAR, VƏTƏN! .......... 10
ANAMIZSAN, SƏN EY VƏTƏN! .......... 11
SƏNDƏN BAŞQA KİMİM VAR Kİ! .......... 12
AĞSAQQALLAR ŞURASI .......... 13
ADIM VƏTƏNLƏ QOŞA .......... 14
MÜHAFİZƏÇİLƏR .......... 15
ƏSGƏR PAPAĞI .......... 16
EY VƏTƏN .......... 17
HAQQIN YOLU .......... 18
DÖYÜŞ BAYRAĞI .......... 19
VƏTƏN .......... 20
ŞƏHİDLƏR .......... 21
HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ (Məktəb marşı) .......... 22
AZƏRBAYCAN ALİ HƏRBİ DƏNİZÇİLİK MƏKTƏBİ (Məktəb marşı) .......... 23
AZƏRBAYCAN ALİ HƏRBİ TƏYYARƏÇİLİK MƏKTƏBİ (Məktəb marşı) .......... 24

ŞƏHİD ŞƏRBƏTİNİ İÇƏNLƏR GƏRƏK .......... 25
TÜRK QANIDIR QANIMIZ .......... 26
DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK MAHNISI .......... 27
ƏSGƏR QARDAŞLAR .......... 28
MÜQƏDDƏS VƏTƏN .......... 29
SƏRHƏDÇİ NƏĞMƏSİ .......... 30
DÖVLƏT GÖMRÜK AKADEMİYASI .......... 31
HƏRBİ AND .......... 32
VƏTƏN SEVGİSİ .......... 33
İLK BEŞİYİM, SON MƏNZİLİM VƏTƏNİM .......... 34
ŞANLI QƏLƏBƏ .......... 35
XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR .......... 36
BİZ GƏLMİŞİK QARABAĞA .......... 37
ŞUŞA QƏDİM QALA .......... 38
TOPÇU VÜSAL .......... 39
QALİBİYYƏT MARŞI .......... 40
HEÇ UNUTMAZ ANA VƏTƏN .......... 41
VƏTƏNƏ ANA DEDİN .......... 42
EY ŞANLI ƏLAHİDDƏ ÜMUMQOŞUN ORDUSU .......... 43
EY TANKÇILAR, EY TOPÇULAR İRƏLİ .......... 45
HEYDƏR ƏLİYEV ADINA HƏRBİ LİSEYİM .......... 46
DƏNİZÇİLƏR VAR OLSUN .......... 47
AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI .......... 48
VETERANLAR MARŞI .......... 49
XÜSUSİ MÜHAFİZƏ BRİQADASI .......... 50
QOCAMAN VETERANLAR .......... 51
FÖVQƏLADƏ HALLAR AKADEMİYASI .......... 52
AZƏRBAYCANIN SÜLHMƏRAMLI QÜVVƏLƏRİNƏ . 53
CƏNGİ ÇALMIŞAM .......... 54
ADIM VƏTƏNLƏ QOŞA .......... 55
TARİXİ QƏLƏBƏ .......... 56
ŞƏHİD PİLOTLAR .......... 57
AND İÇƏN OĞUL .......... 58
VƏTƏN BÖLÜNMƏZDİR .......... 59
VƏTƏN ÜÇÜN ŞƏHİD OLSAQ .......... 60
İNCƏ DUYĞULARDA YAŞAYACAQSAN .......... 61
AZƏRBAYCAN TÜRKİYƏ .......... 62
AZƏRBAYCAN - TÜRKİYƏ DÜNYASI .......... 63
ŞUŞAYA BAYRAĞI ASAN CƏNGAVƏR .......... 64
AZƏRBAYCAN ƏSGƏRİ .......... 65
ZƏFƏRİN MÜBARƏK AZƏRBAYCANIM .......... 66
ŞƏHİD ŞƏRBƏTİNİ İÇDİ ŞƏHİDLƏR .......... 67
VƏTƏN, SABAHIN XEYİR! .......... 68
VƏTƏNİN KEŞİYİNDƏ .......... 69